**DOI: https://doi.org/10.59849/2957-3882.2024.1.112**
**UOT 94**

# ÇİNİN "STRATEJİ PARTNYORU" - HİNDİSTAN

**Zenfira ŞIXƏLİBƏYLİ***

***Açar sözlər:*** *Hindistan, Çin, "Bir kəmər - bir yol" təşəbbüsü, Çin-Hindistan iqtisadi əməkdaşlığı*

## XÜLASƏ

Məqalədə Asiyanın Çin və Hindistan kimi iki nəhəng iqtisadi və siyasi, eləcə də hərbi gücü arasında tarixi əlaqələr, müasir əməkdaşlıq istiqamətləri, əməkdaşlıqla paralel mövcud olan ziddiyyətli məsələlərin, xüsusilə ərazi mübahisələri və Hindistanın Qərblə əməkdaşlığının Çində təhlükə olaraq görülməsi kimi amillərin bu qonşular arasındakı münasibətlərdə əks olunması, Hindistan və Çin arasında əlaqələrin gələcək perspektivləri araşdırılmışdır.

Çin və Hindistan sabit iqtisadi sistemə malik, sürətlə inkişaf edən dövlətlərdir. Regional layihələrdə bu dövlətlərin rolu getdikcə artmaqdadır. Bununla belə, iki ölkə arasında münasibətlərdə sərhəd məsələləri və tarixi keçmiş səbəbindən problemlər mövcuddur. Tədqiqatçılar Çin-Hindistan ərazi münaqişəsinin mənşəyini Hindistanda Britaniya təsirinin yayılması ilə əlaqələndirirlər.

Çin və Hindistan arasında XXI əsrin əvvəllərində başlayan əməkdaşlıq hər iki ölkədə iqtisadi artıma səbəb olmuşdur. Bu illər ərzində onlar demoqrafik problemlərini iqtisadi imkanlara çevirmək siyasəti həyata keçirərək, uğurlu layihələr hazırlaya bilmişlər. Bir çox qlobal məsələlərdə üst-üstə düşən maraqları onlar arasında strateji tərəfdaşlığa gətirib çıxarmışdır. Hindistan və Çinin geniş iqtisadi əlaqələri onları dünyanın iqtisadi nəhənglərinə çevirmişdir.

Regionda siyasi qeyri-sabitlik, ərazi iddiaları və qonşu ölkələr arasında gərginlik Çin-Hindistan münasibətlərinə ciddi təsir göstərmir. Müəyyən məsələlərdə əməkdaşlıqdan rəqabətə gedən yol çox da uzun olmamış, bəzilərində isə onlar iqtisadi inkişafı prioritetləşdirmiş, qarşılıqlı güzəştə getmişlər. Məlumdur ki, bu ölkələr arasında hələ də həll olunmamış məsələlər mövcuddur. Belə ki, hər iki dövlət geosiyasi və iqtisadi potensialına görə regionda kifayət qədər nüfuza malik olsa da, Hindistan iqtisadi baxımdan Çindən geri qalır və öz potensialından tam istifadə edə bilməmişdir. Çin əsasən istehsalçı ölkədir və Hindistana hələ də istehlakçı və əmtəə bazarı kimi baxır.

İkitərəfli əməkdaşlığın dinamikasına baxmayaraq, münaqişə atmosferini saxlayan amillər qalmaqdadır. Ölkələr hələ də sərhəd məsələlərini həll etməmişlər, siyasi arenada eyni mövqedən çıxış etməkdən çəkinirlər. Hindistan televiziyasında Çin ordusunun Hindistan üçün təhlükəli olması ilə bağlı ekspert çıxışları səslənir, hər iki ölkənin hərbi qüvvələri daha çox sərhədlərdə cəmləşmişdir, Pakistana qarşı ümumi mövqe müəyyən edilməmişdir və s. Bu baxımdan strateji rəqabət hər iki ölkənin münasibətlərinə mənfi təsir göstərir və regionda qeyri-sabit münasibətlərin qalmasına səbəb olur. Üçüncü tərəfin bu rəqabətdə iştirakı da təhlükəli problemlərə yol açır. Bununla belə, proqnozlar hələlik tərəflərin mövqelərini aydın şəkildə ifadə etmir.

### Giriş

Çin və Hindistan qədim sivilizasiyaların beşiyi olmaqla yanaşı, qarşılıqlı təsirə malik qədim qonşulardır. Tarixən bu iki ölkə arasında mədəni və ticari əlaqələr mövcud olmuş və dünya sivilizasiyasının inkişafında özünəməxsus izlər qoymuşdur. Bu gün də Çin və Hindistanın sürətli iqtisadi və

* *Filologiya üzrə fəlsəfə doktoru, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.*
*E-mail: zenfira.sh@gmail.com*

mədəni inkişafı təkcə onlar arasındakı münasibətlərə deyil, ümumiyyətlə bütün dünyaya öz təsirini göstərir. Hər iki ölkənin zəngin resursları, xüsusən də insan kapitalının davamlı artımı onları dünya miqyaslı siyasi, iqtisadi və mədəni subyektlərə çevirmişdir.

Məlumdur ki, həm Çin, həm də Hindistanda liberal bazar münasibətlərinin formalaşması və sənaye cəmiyyətinin yaranması mürəkkəb tarixi proseslərin süzgəcindən keçmişdir. Bu ölkələrin siyasi və mədəni elitası Qərbdən gələn kapitalizmi çox çətinliklə həzm edə bilmişdir. Bir əsrdən çox Böyük Britaniyanın müstəmləkəsi olmuş Hindistan və Avropa ölkələrinin yarımmüstəmləkəsinə çevrilmiş Çin yeni iqtisadi formasiyanı fərqli yollarla tətbiq etməyə üstünlük vermişlər. Bununla belə bu illər ərzində əlverişli təbii coğrafi mühitə malik olmaqla demoqrafik artım kimi üstünlüyü əldə saxlamağı bacarmışlar.

Bu gün Çinlə Hindistan arasında iqtisadi, siyasi və mədəni əlaqələr formalaşmışdır. Tarixin bəzi məqamlarında müəyyən mənada oxşar problemlərlə üzləşmiş Çin və Hindistan arasındakı münasibətlər müasir dövrdə bir sıra suallar yaradır. Belə ki, bu iki ölkə arasındakı münasibətlərin perspektivliyi hansı səviyyəyə yüksələ bilər? Dünyanın aparıcı dövlətləri statusuna can atan bu iki dövlət arasındakı rəqabətin sağlamlığı nə qədər real görünür? Çin Hindistanın iqtisadi gücünə nə qədər həssas yanaşa bilər? Bu ölkələrin dünya iqtisadiyyatındakı mövqeyi nə qədər yüksəkdir? Hindistanın regional dövlətdən dünya iqtisadi nəhənginə çevrilməsi məsələsi nə dərəcədə mümkün ola bilər? Çin-Hindistan əməkdaşlığından dünya nə gözləyə bilər?

## 1. Tarixi amillər

Məlumdur ki, Çin və Hindistan minilliklər boyu yanaşı fəaliyyət göstərmiş qədim sivilizasiyalardır. Tibetin Çin tərəfindən işğalına qədər (1950) bu iki ölkənin ümumi sərhədləri olmamış və Himalay dağları ilə bir-birindən ayrılmışlar. Müasir Hindistan-Çin münasibətlərinin tarixi də 1947-ci ildə Hindistanın müstəqillik əldə etməsindən sonra başlanır. XX əsrin ortalarında hər iki ölkəni eyni problem - demoqrafik partlayış narahat etdiyindən, 50-ci illərdə ÇXR və Hindistan arasında bir neçə müqavilənin bağlanması ilə ərzaq mübadiləsinə əsaslanan iqtisadi münasibətlər formalaşmağa başlanmışdır (https://www.hse.ru). 50-ci illərin ortalarında isə dövlətlər arasında əmtəə mübadiləsinin həcmi daha da yüksəlmiş, düyü, kağız, xam ipək və ipəkqurdu, soda və s. kimi məhsul idxalı 10 dəfədən çox artmışdır. İqtisadi əlaqələr iki ölkə arasında siyasi və mədəni münasibətlərin formalaşmasına da böyük təsir göstərmişdir.

Əlbəttə, XX əsrin ortalarında II dünya müharibəsindən çıxmış Avropa ölkələri üçün müstəqilliyini yeni əldə etmiş Hindistanla vətəndaş müharibəsinin və Çin Kommunist Partiyasının rəhbərliyi ilə yaradılmış növbəti sovet respublikasının perspektivləri real görünmürdü (Dünya ölkələri Çin Xalq Respublikasını yalnız 70-ci illərdən tanımağa başladılar). Bununla belə, 50-ci illərdə Çin və Hindistan arasındakı məhsuldar iqtisadi əməkdaşlıq dövlətlərarası münasibətlərə müsbət təsir etmişdir. 1950-ci ildə bu ölkələr arasında diplomatik münasibətlər yaranmış və Hindistan ÇXR-nın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuş, bir sıra məsələlərdə eyni mövqedən çıxış etmişlər (https://data.worldbank.org).

Qeyd etmək lazımdır ki, hər iki ölkənin həmin dövrdə və sonrakı illərdə Qərbə münasibəti yaxşı deyildi. Çinin müstəqilliyi Qərb ölkələri, o cümlədən ABŞ tərəfindən tanınmırdı. Ona görə də Hindistanla Çinin yaxınlaşması üçün ümumi siyasi baxış formalaşa bilərdi. 1954-cü ildə Hindistanla Çin arasında Tibetə dair müqavilənin imzalanması qonşuluq münasibətlərində müəyyən güzəştlərin baş verdiyindən xəbər verirdi. Belə ki, Hindistan Tibetə olan iddialarından imtina edir və onu ÇXR ərazisi kimi tanıyırdı.

Bu müqavilə beynəlxalq aləmdə rezonansa səbəb oldu və öz maddələri ilə gələcəkdə imzalanacaq beynəlxalq Bandunq bəyannaməsinin hücum etməmək, bir-birinin işlərinə qarışmamaq, dinc yanaşı yaşamaq, ərazi bütövlüyünə hörmət etmək, bərabərlik və qarşılıqlı mənfəət prinsiplərini ortaya qoydu.

Lakin müsbət addımlara baxmayaraq, dünyanı sarsıdan yeni siyasi qarşıdurmalar bu iki ölkədən də yan keçmədi. Bir tərəfdən Sovet İttifaqı ilə ziddiyyətli münasibətlər, digər tərəfdən Hindistanın

Pakistanla sərhəd mübahisəsi XX əsrin 50-ci illərinin sonlarından ÇXR və Hindistan arasında münasibətləri kəskin şəkildə pisləşdirdi. Tibetin Çin tərəfindən işğalı və Dalay Lamanın 1959-cu ildə Hindistana sığınması iki ölkə arasındakı münasibətlərə mənfi təsir göstərdi. Münaqişə iki ölkə arasında sərhəd probleminə gətirib çıxardı. Gərginlik o həddə çatdı ki, Hindistanla Çin arasında hərbi toqquşma başladı. 1962-ci ildə Hindistan-Çin sərhəd münaqişəsi, xüsusən də Çinin Aksayçin bölgəsinə müdaxiləsi müharibəyə səbəb oldu və ölkələr arasında hərtərəfli düşmənçiliyə çevrildi.

Münaqişənin səbəbi Aksayçin rayonunda sərhədyanı bölgənin mübahisə mənbəyinə çevrilməsi idi. Hindistan iddia edirdi ki, Çin əsassız səbəblər irəli sürərək, xüsusən də bu ərazilərin vaxtilə Çin imperiyasının tərkibində olmasını əsas gətirərək ərazilərə sahib olmaq istəyir. Çin isə bu bölgənin bir zamanlar Britaniya tərəfindən işğal edildiyini qeyd edir. Uzun mübahisələrdən, hərbi toqquşmalardan sonra ölkələr arasında iki mübahisəli sərhəd məsələsi həllini tapmır. Bununla da Çinin Tibet bölgəsində yerləşən Aksayçin, digəri isə Hindistanın şərqində yerləşən Arunaçal-Pradeş ştatının "Makmaqon xətti" adlanan ərazi 1962-ci ildə Hindistanla Çin arasında müharibəyə səbəb olur (Vertzberger Y., 1984).

50-ci illərin ortalarında Çin Hindistanın Kəşmir bölgəsindəki Aksayçin yaylasında strateji əhəmiyyətə malik olan dağ yolunu Sintszyanla birləşdirməyə çalışdı. Pekin bu yol boyunca nəzarəti öz əlində saxlamağa çalışırdı və Hindistan tərəfinin etirazları nəticəsində sonda sərhəd məsələlərinə yenidən baxılmasını bəyan etdi. Bu isə öz növbəsində Tibetdə üsyanın başlanması və 1959-cu ildə Dalay Lamanın Hindistandan sığınacaq alması ilə başa çatdı. Çin isə Hindistanın bütün sərhəddi boyu geniş ərazilərə iddia irəli sürməyə başladı. Bu iddialar Aksayçindən Butana qədər əraziyə aid idi (https://turalisgandarov.wordpress.com). Moskvanın dəstəyinə arxayın olan Çinin ümidləri isə məsələnin sülh yolu ilə həllinə çağırış edən Sovet İttifaqı rəhbərləri tərəfindən qırıldı.

Uzun illər ölkələr arasında münasibətlərin normallaşmasına yönələn işlər aparılsa belə, vəziyyət dəyişmədi və hal-hazırda münasibətlərin normallaşmasına mənfi təsir göstərir.

Çin və Hindistan siyasi oyunların hədəfinə və nüvə ölkələrinə çevrildilər. Təsadüfi deyil ki, 1998-ci ildə Hindistan rəhbərliyi apardığı nüvə sınaqlarının səbəblərindən biri kimi Çinlə olan sərhəd münaqişəsini əsas göstərdi.

80-ci illərdən etibarən Çin və Hindistan münasibətlərin yenidən bərpa olunması üçün bir sıra addımlar atmağa başladılar. 1988-ci ildə Hindistanın baş naziri Rajiv Qandi Çinə səfərindən sonra dövlətlər arasında müxtəlif sahələrdə, həmçinin ərazi məsələlərində mübahisələrə son qoyulması istiqamətində əməli addımlar atmağa başladı. 1993 və 1996-cı illərdə ÇXR-nın sədri Tsyan Tszimin Dehliyə səfərlər etdi. Lakin ölkələr arasında əməli münasibətlər mürəkkəb proses olaraq qaldı.

XX əsrin sonlarına doğru Soyuq müharibənin bitməsi dünyada yeni sistemin yaranacağından xəbər verirdi. Bu zaman ABŞ siyasi mövqeyini gücləndirdikcə, onun təsir dairəsinə düşməyi təhlükə hesab edənlərin sayı da durmadan artırdı. Çin və güclü siyasi hamisindən məhrum edilən Hindistan eyni mövqedən çıxış edir, ABŞ-ın təsiri altına düşməyəcəklərini açıq aşkar nümayiş etdirməkdən çəkinmirdilər. Bu baxımdan fərqli formata düşən dünyanın siyasi mənzərəsində Hind-Çin münasibətləri də dəyişməyə başlayırdı. Dünyanı təkbaşına idarəetməyə çalışan ABŞ-a qarşı balanslaşmış çoxqütblü dünya nizamı yaratmaq istəyi Hindistanla Çin arasındakı münasibətlərin müsbət məcrada inkişafına böyük təsir etmiş oldu.

Çin Xalq Respublikası BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmaqla böyük siyasi çəkiyə malikdir. XX əsrin sonlarından başlayan yeni iqtisadi proseslər isə Çinin dünya bazarına nəhəng iqtisadi qüvvə kimi çıxışına imkanlar yarada bildi. Çinin sürətli inkişafı dünyada əksər məhsulların istehsal və qiymət dinamikasına təsir göstərdi. Heç bir ölkə Çinlə əməkdaşlıqdan yan keçə bilmirdi. Bu, Çini qonşu ölkələrlə dostluq və əməkdaşlıq münasibətlərinin formalaşdırılmasına istiqamətləndirirdi. Bu baxımdan ÇXR-ın ilk hədəflərindən biri də böyük təbii və insan resurslarına malik Hindistan idi.

Hal-hazırda hər iki dövlət qarşılıqlı əməkdaşlığın əhəmiyyətini kifayət qədər anlayışla qəbul edir. XX əsrin sonu-XXI əsrin əvvəllərində beynəlxalq ticarətdə nəzərəçarpacaq irəliləyişə nail olduqlarını nümayiş etdirmişlər. 1995-ci ildən 2003-cü ilədək Çindən Hindistana mal ixracının həcmində 10-16 % artım müşahidə olunmuşdur (www.hse.ru).

XXI əsrin əvvəllərində Hindistanda keçirilən islahatlar ÇXR-dan gec başlasa da, onların Çin-Hindistan münasibətlərinə təsiri az olmamışdır. Hindistan Çindən geri qalmamağa çalışır. Bu rəqabət Hindistanın iqtisadi inkişafına o dərəcədə təsir etmişdir ki, onun 2004-cü ildəki ticarət dövriyyəsi Çinin 90-cı illərdəki səviyyəsinə çatmışdır.

XX əsrin 90-cı illərində bir çox hind sahibkarı yenilənən Çin bazarını, inkişaf etmiş informasiya texnologiyası üzrə insan resurslarını, böyüyən və dünya bazarını zəbt etməkdə olan Çinin tanınmış müəssisələrini (məsələn, Huawei) Hindistanda böyük kommersiya imkanları kimi qəbul etdi. Bu baxımdan Hind-Çin münasibətlərinin yeni mərhələsi XXI əsrin ilk onilliyindən başlayaraq, yüksələn dinamika ilə inkişaf etməyə başladı. Tezliklə, Çin Hindistanın ABŞ və Britaniya kimi ənənəvi idxalçılarını keçərək Hindistanın nəhəng iqtisadi partnyoruna çevrilə bildi. Çin Hindistana sənaye malları idxal etdiyi halda bu ölkədən daha çox xammal daşıyırdı (Vertzberger Y., 1984).

Öz infrastruktur problemlərini həll etməyə çalışan Hindistan Çindən idxal etdiyi texnoloji yeniliklər və məhsullarla avtomagistrallarını, dəmiryollarını, liman və elektroenergetikasını dirçəldərək, sənayesini qısa müddət ərzində modernləşdirə bildi.

Beləliklə, intensiv iqtisadi əməkdaşlıq Hindistanla Çin arasında ticarət dövriyyəsini dayanmadan artırırdı. Əgər bu dövriyyə XX əsrin sonlarında 300 milyondan bir qədər artıq idisə, XXI əsrin əvvəllərində rəqəmlər 6 milyarda çatdı (www.hse.ru). Çin həmçinin hind mallarının dünya ölkələrinə ixracı ilə də fərqlənirdi. Həmin illərdə dominantlıq Çində idi və ölkələr arasında rəqabət nəzərəçarpacaq dərəcədə deyildi. Bu isə qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsinə xidmət edirdi. Məhz bu illərdən etibarən hər iki ölkənin mütəxəssisləri əməkdaşlığın perspektivlərini anlayaraq onların maksimal səviyyəyə qalxması istiqamətində müxtəlif birgə layihələr hazırlamağa başladılar. Dünya ölkələri, ekspertlər Hindistanın perspektivlərini inkar edə bilmirdilər.

Bununla belə, Hindistanla Çin arasındakı münasibətləri ləngidən müxtəlif amillər də mövcud idi. Əvvəla, ərazi mübahisələri, hər iki dövlətin nüvə ölkəsi olması, regionda dominant siyasətə yönəlməsi, ikinci, iqtisadiyyatda Çinin üstünlüyü ilə müşahidə olunan balanslaşmamış ticarətdən irəli gələn amillər hind iqtisadiyyatının Çin sənayesinin dinamik inkişafına fayda verdiyini göstərirdi. Hindistan Çindən bütün makroiqtisadi parametrlərinə görə geri qalırdı. Təxminən 600 milyard dollar fərq ilə bu əməkdaşlıq Hindistanı narahat edirdi (www.hse.ru) və ölkə iqtisadçılarını düşündürməyə bilməzdi.

Buna baxmayaraq, bir çox analitiklər hər iki ölkə arasındakı iqtisadi əməkdaşlığa skeptik yanaşırdılar. Belə ki, siyasi münasibətlərə gəldikdə, Çin hələ də sərhəd problemini dəstəkləməkdə, Hindistan isə Tibet qaçqınlarını himayə etməkdə davam edir. Bu isə regionda öz nüfuzunu bərpa etməyə çalışan ABŞ və bu kimi digər Avropa ölkələrinə sərfəlidir və iki ölkə arasındakı siyasi rəqabətin dərinləşməsinə, iqtisadi münasibətlərin isə əksinə, inkişafdan qalmasına səbəb olur. Bu ölkələr dünyanı inandırmağa çalışırlar ki, Çinlə Hindistan arasında münasibətlər çox həssas qalmaqda davam edəcək və iri iqtisadi əməkdaşlıqdan danışmağa dəyməz.

Bununla belə analitiklərin əksəriyyəti çox gözəl başa düşür ki, müasir dünyanın iqtisadi inkişafını bu iki ölkə olmadan təsəvvür etmək mümkün deyil. Hind-Çin münasibətlərinin perspektivliliyinə inanan ekspertlər bu münasibətlərin qurulmamasından hər iki ölkənin zərər görəcəyini iddia edirlər. Belə ki, bu ölkələr dünya iqtisadiyyatına fərqli yollarla daxil olmuşlar. Çin daha böyük iqtisadi potensialla arenaya çıxmışdı. Lakin bu əməkdaşlıqdan Çin nə qədər qazansa da, qarşılıqlı münasibətlərin formalaşması Hindistan iqtisadiyyatının dinamikasına daha müsbət təsir etmişdir. Yoxsul Hindistan üçün üçüncü dünya ölkələri cərgəsindən çıxmaq və nəhəng demoqrafik artımın qarşısında sosial partlayışdan xilas olmaq məqsədilə Çinlə iqtisadi əlaqələrin davamlı inkişafı həyati vacib məsələ idi. Bu yanaşma Hindistanın yeni Baş naziri Nahendra Modinin siyasətində də öz əksini tapırdı.

Bu gün Çin iqtisadiyyatı dünyanın ikinci iqtisadiyyatına çevrilmişdir və demək olar ki, heç bir ölkə Çinlə əməkdaşlıqdan yan keçə bilməmişdir. Paralel olaraq, Çin dünya siyasətində də irəli addımlamaqda davam edir və regional dövlətdən qlobal dövlətə çevrilir. XX əsrin sonlarında ÇXR-nın siyasi elitasını ölkənin sosial durumu narahat edirdi, ölkə rəhbərləri çin xalqının sosial rifahına nail olmalı idi. Bu problem ölkədə Kommunist Partiyasının dayaqlarını sarsıdırdı. Bu baxımdan Den Syaopinin başladığı iqtisadi islahatlar həyati vacib məsələyə çevrilmişdi.

Çinin ambisiyalı layihələrindən biri də dünya bazarına ucuz mallarla çıxması olmuşdur. Dünya iqtisadiyyatına bu cür nüfuz edən Çin 2018-ci ildən etibarən mal ixracının həcminə görə ABŞ-ı keçərək dünya iqtisadiyyatının liderinə çevrilə bilmişdir. Çinin xarici dövlətlərə yatırımlarının həcmi də 158 milyard dolları ötmüşdür. Hal hazırda ölkə maliyyə, virtual reallıq, biotexnika, robotexnika, süni intellekt, təhsil və hərbi texnologiyalara etdiyi yatırımlarla liderliyə çox yaxınlaşmışdır. ÇXR-in mallarının keyfiyyətinin yüksəldilməsi və innovasiya fəaliyyətinin inkişafı dövlət rəhbərliyinin uzunmüddətli işinin nəticəsidir. 2012-ci ildə ÇXR-in iqtisadi siyasətində təkcə ixrac bazarlarının deyil, daxili bazarların inkişafına start verən dəyişiklik və Qərblə ticarətdən asılılığın azaldılması yeni stimul oldu. Bu istiqamətdə atılan hər bir addım Çinin dünyadakı siyasi mövqeyinə inanılmaz dərəcədə müsbət təsir göstərə bildi (https://russiancouncil.ru).

Qədim "İpək yolu"nun bərpası da Çinin iqtisadi siyasətinin maraqlarına xidmət edir, onu inkişaf etdirir və tamamlayır. Bu proqramın perspektivlərində nəhəng maliyyə resurslarına malik Çinin infrastruktur proqramlarına cəlb olunması ölkənin investisiya imkanlarını daha da genişləndirir və dünya iqtisadiyyatında köklü dəyişikliklərə səbəb olaraq, "qlobalizm və maliyyə kapitalizmindən proteksionizm və milli kapitalizmə dönüş yaradır (www.hse.ru). Beləliklə, Çin elə bir iqtisadi yüksəlişə çatmışdır ki, onun maliyyə imkanlardan istifadə etməmək düzgün deyil.

Çin iqtisadiyyatının rəqabətədavamlığının çoxsaylı əhalinin mövcudluğu, Çin məhsullarına bütün dünyada tələbat, əlverişli işçi qüvvəsinin olması, dövlətin maliyyə dəstəyinin mövcudluğu, dövlətin iqtisadiyyatda effektiv iştirakı, dinamik iqtisadi irəliləyiş, müəssisələrin iqtisadi tələblərə uyğunlaşması və sürətli modernləşmə imkanları kimi özünəməxsus xüsusiyyətləri var. Bu da yaxın gələcəkdə Çinin dünya iqtisadiyyatında aparıcı qüvvə olaraq qalacağına əsas verir. Bununla belə, ekspertlər ölkənin xarici mühitdən asılılıq, borc kapitalının yüksək göstəriciləri, sosial və iqtisadi balanssızlıq, problemli ətraf mühit və demoqrafiya, sosializmin baza kimi saxlanılması kimi iqtisadi nöqsanlarının mövcudluğunu da vurğulayırlar. Qeyd etmək lazımdır ki, sosializm və Çin Kommunist Partiyasının aparıcı mövqeyini digər ekspertlər üstünlük kimi qəbul edərək, onu dünya arenasında Qərbin regionda və dünyadakı təkqütblü iddialarına qarşı müqavimət siyasətinin aləti olaraq görürlər.

### 2. Hindistan

XXI əsrin astanasında ekspertlər Hindistan iqtisadiyyatının perspektivlərinə görə onun dünyada öndə olduğunu qeyd edirdilər. Bu gün Hindistan əhalisinin sayına və demoqrafik artımına görə Çini keçmişdir. Bu isə öz növbəsində istehlak bazarının imkanları istiqamətində onun üstünlüklərindən sayılır. XXI əsrə fərqli yüksəlişlə qədəm qoyan Hindistanda mövcud yoxsulluq və gözqamaşdıran zənginlik, kütləvi savadsızlıq və yüksək ixtisaslı peşəkarlıq, real demokratiya və güclü bürokratiya kimi sosial təzadların mövcudluğu onun iqtisadiyyatının perspektivlərinə skeptik yanaşanların sayını artırırdı. Bununla belə bir sıra tədqiqatçılar Hindistanın perspektivlərini Çindən daha yüksək qiymətləndirərək, onun yaxın gələcəkdə Çini geridə qoyacağına əmin idilər.

Hind iqtisadiyyatının XXI əsrin əvvəllərindən müşahidə olunan irəliləyişi asan yol keçməmişdir. Müstəqilliyindən bəri bir çox hallarda korrupsiya və kütləvi qətllərlə müşayiət olunan siyasi, milli və dini çəkişmələr siyasi elita tərəfindən keçirilən modernləşmə islahatlarının tamamlanmasına imkan vermirdi. Bu isə ölkənin iki əsas problemini - yoxsulluq və demoqrafik artımı daha dərinləşdirirdi.

XX əsrin sonlarında hakimiyyətdə baş verən dəyişiklik tam fərqli model nümunəsində aparılan iqtisadi islahatlarla diqqəti cəlb etdi. Hindistan iqtisadiyyatını liberallaşdırmaq, bazarın rolunu artırmaq və genişləndirmək, bürokratik müdaxilələri azaltmaq üçün tənzimləmə tədbirlərini və qaydala-

rını dəyişdirmək istiqamətində xeyli işlər aparıldı. Bu baxımdan islahatlar başlıca olaraq, üç əsas istiqaməti əhatə edirdi: liberallaşma, özəlləşdirmə və iqtisadiyyatın qloballaşdırılması. Bir çox sahələrdə lisenziyalar ləğv edildi, tariflər endirildi və ölkə bütün dünya üçün açıldı. Bunun nəticəsidir ki, çox az müddətə ölkəyə axın edən maliyyə resursları sıfır səviyyəsindən 8% qədər artdı (www.hse.ru).

Qeyd etmək lazımdır ki 1991-ci ildən aparılan islahatlar iqtisadi sistemin deyil, elm, texnologiyalar, təhsil və əməyin məhsuldarlığında modernləşmə ilə başlanan islahatlar modelinin tətbiqi demək idi. Hal-hazırda islahatlar nəticəsində hind iqtisadiyyatı daha sürətlə irəliləyərək Çinlə rəqabətə girir və dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı hesab edilərək, beşinci yerdə qərarlaşır. Son illərdə Hindistanın iqtisadi artımı dövlətin büdcəsinə trilyon dollar gəlir gətirə bilmişdir. Araşdırmalar göstərir ki, iqtisadi artım əhalinin rifahına müsbət təsir göstərə bilər. Bunu Çinin nümunəsində görmək mümkündür. Belə ki, düzgün və düşünülmüş iqtisadi və sosial layihələr (xüsusən də orta və ali təhsilin əlçatan olması) yoxsulluq həddində olan insanların tədricən azalmasına, xidmət sahələrinin keyfiyyətli təşkilinə, yerli biznesi qərb modelinə uyğunlaşdırmağı bacaran yüksək ixtisaslı mühəndislərin və menecerlərin, İT texnoloqlarının hazırlanmasına gətirib çıxara bilər. Məhz bu cür yanaşma nəticəsində XX əsrin ikinci onilliyində nəhayət ki, Hindistan dünya iqtisadiyyatında əczaçılıq, informasiya texnologiyaları sahəsində özünəməxsus yer tutmağa nail ola bilmişdir.

Beləliklə, Hindistanın XX əsrin sonlarından başlayan iqtisadi inkişafının aşağıdakı səbəblərini müəyyənləşdirə bilərik:

1. Bazarın liberallaşması və investisiyaların artması.
2. Ucuz işçi qüvvəsi və xidmət sektorunun payının artması.
3. Çin, Sinqapur və Yaponiyanın timsalında yeni strateji partnyorların cəlb edilməsi.

Hindistanın sürətli iqtisadi tempini araşdıran ekspertlərin vurğuladığı maraqlı faktlardan biri odur ki, "Hindistanın iqtisadi modelində kapitalist, sosialist və inkişaf etməkdə olan bütün ölkələrin təcrübələrindən məharətlə istifadə olunmuşdur" (https://www.hse.ru 2013). Bu başqa cür ola da bilməzdi. Belə ki, Çinlə müqayisədə Hindistan yüz ildən çox Britaniyanın müstəmləkəsi olmuş, ciddi hazırlıqlı siyasi, iqtisadi və sosial təcrübələri həyata keçirmək üçün geniş zamana və təhsilli insan resurslarına sahib olmamışdır. Bu baxımdan, ÇXR-ın təcrübəsi Hindistan üçün uğurlu layihə kimi görünürdü.

Bununla belə, XXI əsrin 20-ci illərindən etibarən hind iqtisadiyyatı bəzi problemlərlə üzləşmişdir. Bu problemlərin kökündə iqtisadi inkişafın tempini səmərəli idarə etməyi bacaran kadrların olmaması, operativ qərarların verilməməsi, korrupsiyanın aradan qaldırılmaması, sosial təbəqələşmənin daha da dərinləşməsi, sərmayə qoyuluşunun azalması, inflyasiya, bank sistemində böhranlar, aqrar sektordakı çətinliklər və s. məsələlər dayanır.

### 3. Çin-Hindistan münasibətləri

Beləliklə, XXI əsrin əvvəllərində Çin və Hindistan arasında ticarət-iqtisadi əlaqələr yüksələn xətlə inkişaf edirdi və siyasi problemlərin mövcudluğuna baxmayaraq, onların gələcək inkişafı ilə bağlı müsbət proqnozlar səslənirdi.

XXI əsrin əvvəllərində Çin və Hindistan düşmənçilik mövqeyindən "sürətli və hərtərəfli inkişaf" mərhələsinə daxil olmaq qərarı verdilər. 2003-cü ildə ölkə başçıları mübahisəli sərhədyanı bölgələr məsələsinin praqmatik həlli yollarından istifadə edilməsinə dair bəyanatlarla çıxış etdilər. 2004-cü ildə Çin mübahisəli ərazini Hindistanın ştatı kimi qəbul etdiyini bildirdi, həmin dövr hər iki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri ilə yadda qaldı. 2010-cu ildə isə ÇXR və Hindistan arasında 16 milyard dollarlıq ticarət sövdələşməsi baş tutdu, eyni zamanda ölkələr arasında Strateji İqtisadi Dialoq (STD) adlı işçi qrup yaradıldı. Bu qrup münasibətlərin əməkdaşlıq çərçivəsinə salınması istiqamətində fəaliyyət göstərməsi üçün işlər görür (https://www.jstor.org). 2008-ci ildən Çin Hindistanın ən böyük ticarət ortağına çevrildi.

2013-cü ildə yuxarıda qeyd olunan kursu dəstəkləmək istəyi ilə yanaşı, hər iki tərəf investisiya, infrastruktur və İT layihələrinin inkişaf etdirilməsində, o cümlədən regionda ümumi, ekoloji, ərzaq

və enerji təhlükəsizliyinin və iqtisadi asayişin qorunmasında maraqlı olduqlarını bildirmiş və sonda müxtəlif sahələrdə əməkdaşlığın gücləndirilməsinə yönəlmiş iyirmiyə yaxın sənəd imzalamışlar. Sənədlər arasında “Hindistan-Banqladeş-Myanma-Çin” iqtisadi dəhlizinin yaradılması layihəsi üzrə dialoqun başlanmasını xüsusi qeyd etmək lazımdır. Bu dəhliz “Yeni İpək Yolu” layihəsinin son dərəcə vacib hissəsi olmaqla bərabər, Yeni İpək Yolunun beynəlxalq nəqliyyat şəbəkəsinin qurulmasında mühüm rol oynamalı idi. Çin, həmçinin “Şərqi Asiya - Cənubi Asiya” vahid iqtisadi məkanı yaratmağa çalışmaqla Hindistanı inandırırdı ki, layihənin məqsədi Çinin regional təsirini artırmaq deyil, ortaq rifahın əldə olunmasıdır. Bu baxımdan, məhz “Yeni İpək Yolu” layihəsi Hindistanı BRICS, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyası (SARAC) kimi regional təşkilatlara cəlb edirdi. 2015-ci ildə bu ölkələr arasında 100 milyard dollarıq ticarət razılığı əldə edildi (https://nauchforum.ru).

Bununla belə, Çinlə Hindistan arasındakı iqtisadi münasibətlərdə hərtərəfli dostluqdan danışmaq yanlış olardı. Belə ki, ekspertlərin də iddia etdiyi kimi, Hindistanın xarici işlər naziri Suşma Svarajın sözləri ilə ifadə etsək, “Çin və Hindistan arasındakı mövcud əlaqələr “rəqabət və əməkdaşlıq” kimi təsvir edilə bilər” (www.hse.ru).

2010-cu ildə Hindistan Aksayçini Çinin ərazisi kimi tanımadığını, Pekin Hindistanın Arunaçal Pradeş ştanını ona verməli olduğunu bəyan etmişdir.

2012-ci ildə ÇXR rəsmiləri Hindistanla əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını bəyan etmiş və ikitərəfli məsləhətləşmələr sırasında ölkələrarası ticarət dövriyyəsinin artırılması haqqında qərar qəbul etmişlər.

Məhz 2012-cü ildən sonra Hindistanla ÇXR arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyur. Belə ki, Çin rəsmiləri bildirirlər ki, Hindistanla əməkdaşlıq yalnız “strateji dialoqa” əsaslana bilər. Həmin ildə Si Tszinpinin Hindistana səfəri zamanı tərəflər ticarət və investisiya sahəsində, infrastrukturun inkişafı, informasiya, rabitə və yüksək texnologiya sahələri, mədəniyyət və turizm sahəsində qarşılıqlı fəaliyyət istiqamətində üç anlaşma memorandumu və on iki saziş imzalamış, Hindistan əczaçılıq məhsullarının Çin bazarlarına çıxışını genişləndirməyə və Hindistanın infrastruktur və istehsalına Çin investisiyalarını artmasına dair razılıq əldə edilmişdir. Nəhayət, Hindistanın Baş naziri N.Modi də seçki vədlərində çox vacib bir məqama toxunaraq inflyasiya, kapitalın çatışmazlığı və korrupsiya ilə sarsılan ölkə iqtisadiyyatını dirçəltmək kimi məsələləri həll edəcəyinə söz vermişdir. Belə ki, Modi Hindistanın regionda və dünyadakı siyasi mövqeyinin iqtisadi modernləşmə siyasətinin uğurundan asılı olduğuna əmindir (https://data.worldbank.org).

İki ölkə arasında gərgin münasibətlər 2019-cu ildə Hindistanda baş vermiş terror aktına münasibətdə Çinin mövqeyi ilə bağlı daha qabarıq özünü göstərməyə başlamışdır (https://www.perspektivy.info). Ümumiyyətlə, bu gərginliyin mənbəyi əsas etibarilə strateji amillərdir. Hindistanı Çinin strateji planları, xüsusən də Pakistanla olan yaxın münasibətləri narahat edir. Məsələn, Pakistanın Qvadar liman kompleksinə Çin büdcəsindən ayrılan 500 milyon qrant hind hökuməti tərəfindən Pakistanın hərbi potensialının güclənməsinə yönəlmiş plan kimi dəyərləndirilmişdir. Çin isə Hindistanın ABŞ ilə strateji sövdələşmələrindən ehtiyatlanaraq, bu dövləti Asiya-Sakit okean hövzəsində Çinin mövqeyinə vurula biləcək təhlükələrə yol açmaqda ittiham edirdi.

Çin bəzi rəsmi bəyanatlarda ABŞ-ın Asiya-Sakit okean hövzəsini Hind-Sakit okean hövzəsi adlandırmasını Hindistanın regional hegemonluğunun tanınması kimi qəbul edirdi və bu tərəfdaşlığı regionda “sabitliyi pozan qüvvə” hesab edirdi (https://regnum.ru). Bu da Çinin Rusiyaya yaxınlığını daha da artırır. Bu mənada strateji baxımdan müasir Hind-Çin münasibətləri bir çox ekspertin ifadə etdiyi kimi, “Çin-Hindistan-ABŞ” dinamik üçbucağı adlandırılır. Qeyd etmək lazımdır ki, Hindistan Çinin ABŞ-la yaxınlaşmasında maraqlı deyil, eyni zamanda onlar arasında genişmiqyaslı münaqişədən də zərər görə bilər, çünki bu ilk növbədə ölkənin regional və daxili maraqlarına ciddi zərbə vura bilər. Bundan əlavə, amerikalılar Hindistana Asiyada Çin hökmranlığının qarşısını almağa yardım edə bilər. Bu səbəbdən Hindistan rəsmiləri ABŞ-ın regionda əhəmiyyətli rolunda maraqlı olduqlarını daim qeyd edirlər. Çin isə əksinə, Amerikanın Asiya işlərində iştirakının mümkün qədər minimallaşmasında maraqlıdır (www.brookings.edu). Beləliklə, analitiklərin çoxu qeyd edir ki, bu

gün “ Hindistan və Çin dost deyil, rəqibdirlər” (Насенко Ю. П., 1975) və iki ölkə arasında inamsızlıq sürətlə artır.

Çinin regionda hegemonluğunun ən parlaq nümunəsi geniş əraziləri ticarət əlaqələri ilə birləşdirəcək və ilk növbədə özünün maraqlarına xidmət edən “Bir kəmər, bir yol” adlı infrastruktur layihəsidir. Bu proqram o deməkdir ki, Çin hələ uzun müddət layihəyə qoşulmuş ölkələrə külli miqdarda əmtəə ixracı və investisiya resursları sərf edəcək, onun daha da genişlənməsinə şərait yaradacaq və Çin rəhbərlərinin dediyi kimi, “ölkə dünyada öz layiqli yerini geri qaytarmasına” (Насенко Ю. П., 1975) çalışacaqdır.

**Nəticə**

Beləliklə, XXI əsrin əvvəllərində Çinlə Hindistan arasında başlayan əməkdaşlıq hər iki ölkənin iqtisadi yüksəlişinə səbəb olmuşdur. Bu ölkələr uzun illər ərzində demoqrafik problemlərini iqtisadi imkana çevirmə siyasəti sayəsində uğurlu layihələrlə çıxış edə bilmişlər. Müxtəlif qlobal məsələlərdə eyni maraqlar onları strateji əməkdaşa da çevirə bilmişdir. Müəyyən sahələrdə mübahisələrə baxmayaraq, Hindistanla Çin arasında mövcud olan geniş iqtisadi əlaqələr hər iki ölkəni dünyanın iqtisadi nəhənglərinə çevirmişdir. Təsadüfi deyil ki, ABŞ və Avropa ölkələri bu ölkələrin iqtisadi potensialından narahat olduqlarını da gizlətmirlər və gələcək planlarını məhz bu xüsusiyyət üzərində tərtib etdiklərini bildirirdilər.

Hindistan-Çin əməkdaşlığı müsbət yönümlü addımlarla diqqəti cəlb edir. Bu iki ölkə arasındakı uzunmüddətli ərazi münaqişələri iqtisadi maraqları aşa bilməmişdir. Həm Hindistan, həm də ÇXR elitası çox gözəl başa düşür ki, iqtisadi yüksəliş bir çox problemlərin həllində açar rolunu oynaya bilər. Ekspertlər gələcəkdə rəqabətin məhz bu iki ölkə arasında baş verəcəyini də proqnozlaşdırırlar.

Bununla belə regiondakı siyasi sabitsizlik, ərazi iddiaları, qonşu ölkələr arasındakı münasibətlərin gərginliyi Çin və Hindistan arasındakı münasibətlərə təsirsiz ötüşmür. Müəyyən məsələlərdə iqtisadi inkişafı önə çəkərək, bəzi məsələlərdə güzəştə gedən dövlətlərin əməkdaşlıqdan rəqabətə getdiyi yol çox da uzun olmamışdır. Bu ölkələr arasında kifayət qədər həll olunmamış məsələlərin mövcudluğu da nəzərə alınmalı cəhətdir. Belə ki, hər iki ölkə regionda həm geosiyasi, həm də iqtisadi potensialına görə kifayət qədər qüvvəyə malik olsalar da, Hindistan iqtisadi cəhətdən Çindən geri qalır və iqtisadi baxımdan bütün potensiallarından istifadə edə bilməmişdir. Çin daha çox istehsalçı tərəf olsa da, Hindistana istehlak və xammal bazarı kimi baxmaqda davam edir. İkitərəfli əməkdaşlığın dinamikasına baxmayaraq, onu əngəlləyən amillər də qalmaqdadır. Ölkələr hələ də sərhəd məsələlərini həll etməyib, siyasi arenada eyni mövqedən çıxış etməkdən ehtiyatlanırlar, hind televiziyalarında Çin ordusunun Hindistan üçün təhlükəli olduğuna dair ekspert çıxışları olur, hər iki ölkənin sərhədlərdə hərbi qüvvələri cəmləşmişdir, Pakistanla münasibətdə ortaq mövqe müəyyənləşməyib və s. Bu baxımdan strateji rəqabət hər iki ölkənin münasibətlərinə mənfi təsir göstərir və regiondakı qeyri-sabit münasibətlərin dərinləşməsinə xidmət edir. Bu rəqabətdə üçüncü ölkələrin iştirakı da təhlükə və problemlərə yol açır. Buna baxmayaraq, proqnozlar hələ ki, tərəflərin mövqelərini birmənalı şəkildə ifadə edə bilmir. Hindistanın inkişaf dinamikasını yüksək qiymətləndirərək, gələcək onilliklərdə daha irəli gedəcəyini bildirənlər də az deyil.

## ƏDƏBİYYAT


http://www.brookings.edu/research/opinions/2014/09/16-modi-xi-summit-and-china-india-relations (accessed: 24.03.2020). The Modi-Xi Summit and China-India Relations,

https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.PP.CD?locations=IN&view=chart India // World Bank Data Bank,

https://nauchforum.ru/journal/stud/41/41057 (дата обращения: 10.04.2020). Мухина Я.А., Шубин П.С. Основные тенденции индийско-китайских отношений на современном этапе -

https://regnum.ru/news/polit/2384194.html (дата обращения: 23.03.2020). Индия и Китай пока остаются «заклятыми друзьями»,

https://russiancouncil.ru/blogs/rsuh/kitayskoindiyskoe-gumanitarnoe-sotrudnic-hestvo-nauka-obrazovanie-stude/ Китайско-индийское гуманитарное сотрудничество: наука, образование, студенческие обмены. (2020),

https://turalisgandarov.wordpress.com/2011/01/29/tibet/ İskəndərov T. (29. 01.2011) Tibet Münaqişəsi Hind-Çin qarşıdurmasının səbəbləri

https://www.hse.ru/data/2013/04/03/1294924470/3-%D0%93%D1%80%D0%B8%D0%BD%D0%B8%D0%BD-%D0%B4%D0%BE%D0%BA2.pdf Гринин Л.Е. Китайская и индийская модель экономического развития и перспективы мирового лидерства

https://www.hse.ru/edu/vkr/364643189 Фалилеев Ф В. Торгово-экономические отношения между КНР и Индией в ЧЧЖ веке,

https://www.jstor.org/stable/resrep05794?seq=1#metadata_info_tab_contents (accessed: 25.03.2020). Narayanan R. China and India: A Sisyphean Bilateral?,

https://www.perspektivy.info/oykumena/azia/izmenenije_kharaktera_kitajsko-indijskih_otnoshenij_na_fone_obostrenija_pogranichnyh_protivorechij_vzglad_iz_nju-deli_2022-05-22.htm Лихачев К. Изменение характера китайско-индийских отношений на фоне обострения пограничных противоречий: взгляд из Нью-Дели,

Vertzberger Y. (1984) Misperceptions In Foreign Policymaking: The Sino-Indian Conflict 1959-1962, Avalon Publishing.

Аликберов Э. Ш. (2020). Китайско-индийские отношения на современном этапе: обзор. VOL.2, №4

Насенко Ю. П. (1975). Дж. Неру и внешняя политика Индии. М.: Вост. лит. РАН, 383 стр.

## *РЕЗЮМЕ*

***Зенфира ШИХАЛИБЕЙЛИ***

### *Индия - "стратегический партнер" Китая*

***Ключевые слова:*** *Индия, Китай, инициатива «Пояс и путь», Китайско-индийское экономическое сотрудничество*

Китай и Индия являются самыми быстро развивающимися странами со стабильными экономическими системами. С каждым годом наблюдается возростающая роль этих государств во всех региональных проектах. Однако, дипломатические связи между двумя странами временами ослабевали из-за проблем пограничнего регулирования и колониального прошлого.

Генезис китайско-индийского территориального конфликта исследователи фиксируют с распространением британского влияния в Индии.

Сотрудничество Китая и Индии, начавшееся в начале XXI века, привело к экономическому росту обеих стран. За эти годы обе страны смогли разработать еще более успешные проекты, реализующие политику превращения своих демографических проблем в экономические возможности. Те же интересы в различных глобальных проблемах превратили

их в стратегических партнеров. Обширные экономические связи Индии и Китая превратили их в экономических гигантов мира.

Однако политическая нестабильность в регионе, территориальные претензии и напряженность между соседними странами не влияют на отношения Китая и Индии. Путь от сотрудничества к конкуренции был не очень долгим, когда государства, которые в определенных вопросах отдавали приоритет экономическому развитию, а в некоторых вопросах шли на компромисс. Также выяснилось, что между этими странами все еще остается много нерешенных вопросов. Итак, хотя обе страны обладают достаточным влиянием в регионе благодаря своему геополитическому и экономическому потенциалу, Индия отстает от Китая экономически, и они не смогли использовать весь свой потенциал с экономической точки зрения. Хотя Китай в большей степени является производителем, Индия по-прежнему рассматривается со стороны Китая, как потребительский и сырьевой рынок. Несмотря на динамику двустороннего сотрудничества, факторы, сохранявшие конфликтную атмосферу, все еще существуют. В странах до сих пор не решены пограничные вопросы, они опасаются занимать одну и ту же позицию на политической арене, на индийском телевидении звучат экспертные выступления о том, что китайская армия опасна для Индии, военные силы обеих стран в большей степени сконцентрированы на границы, не определена общая позиция по отношению к Пакистану и т.д. В связи с этим стратегическая конкуренция оказывает негативное влияние на отношения обеих стран и служит углублению нестабильных отношений в регионе. Участие третьих стран в этом соревновании также приводит к опасным проблемам. Однако прогнозы пока не способны однозначно сформулировать позиции сторон.

## ABSTRACT

***Zenfira SHIKHALIBEYLI***

### *China's "Strategic Partner" India*

***Keywords:*** *India, China, Belt and Road Initiative, China-India Economic Cooperation*

In the article, historical relations between the two giant economic and political as well as military powers of Asia, China and India, the directions of modern cooperation, conflicting issues that exist parallel to cooperation, especially territorial disputes, and factors such as the perception of India's cooperation with the West as a threat to China and its reflection in the relations between these neighbors are discussed, along with the future prospects of relations between India and China.

China and India are rapidly developing countries with a stable economic system. The role of these states in regional projects is increasing. However, there are problems in the relations between the two countries due to border issues and the historical past. Researchers attribute the origin of the Sino-Indian territorial conflict to the spread of British influence in India.

The cooperation between China and India, which began at the beginning of the 21st century, led to the economic growth of both countries. During these years, both countries have been able to come up with even more successful projects with the policy of turning their demographic problems into economic opportunities. The same interests in various global issues have turned them into strategic collaborators. The extensive economic ties of both countries have made them economic giants of the world.

However, political instability in the region, territorial claims, and tensions between neighboring countries do not affect China-India relations. The path from cooperation to competition was not very long, with states that prioritized economic development on certain issues and compromised on others. It also turned out that there are still many unresolved issues between these countries. So, although both countries have enough influence in the region due to their geopolitical and economic potential,

India lags behind China economically, and they have not been able to exploit their full potential from an economic point of view. Although China is largely a manufacturer, India is still viewed by China as a consumer and commodity market. Despite the dynamics of bilateral cooperation, factors constraining the conflict atmosphere still remain. The countries still have not resolved border issues, they are afraid to take the same position in the political arena, expert speeches are heard on Indian television that the Chinese army is dangerous for India, the military forces of both countries are more concentrated on the borders, not a common position towards Pakistan has been determined, etc. In this regard, strategic competition has a negative impact on the relations between both countries and serves to deepen unstable relations in the region. The participation of third-party countries in this competition also leads to dangerous problems. However, forecasts are not yet able to clearly formulate positions.